# «GƏLİN TƏHSİLİN İNKİŞAFI NAMİNƏ SƏYLƏRİMİZİ ARTIRAQ»

*Xəbər verdiyimiz kimi, 2001-ci il oktyabrın 29-da Avropa Şurasının Moritorinq Komitəsinin nümayəndələri Andreas Qross, Martines Kasan, Marni Trezpaz, Eqbert Anseyt, Azərbaycan Respublikası Milli Məclisinin üzvləri Şahlar Əsgərov, Səlahəddin Xəlilov, Azərbaycan təhsil nazirinin müavini Elmar Qasımov Xəzər Universitəsində olmuşlar.*

*Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ingilis dilində maraqlı çıxış etmişdir. Həmin çıxışın Azərbaycan dilinə tərcüməsini oxuculara çatdırırıq.*



Hörmətli qonaqlar, əziz dostlar, əziz həmkarlar!

Xəzər Universitəsi adından sizi Azərbaycanın Avropa Şurasında üzvlüyünün bir illik təcrübəsi ilə bağlı keçirilən bu görüşdə salamlayıram. Bu gün burada çox dəyərli insanlar iştirak etdiyinə görə bizim görüşümüzün çox maraqlı olacağını düşünürəm. Mən xüsusilə Avropa Şurasından və Qərbi Avropadan gələn qonaqlarımıza xoş gəldiniz demək istəyirəm. Həmçinin Milli Məclis üzvlərinin və Təhsil Nazirliyinin yüksək vəzifəli şəxslərinin burada olmasından çox məmnunam.

Mən burada iştirak edən dostlarımızı, mətbuat işçilərini də salamlayıram.

Əziz dostlar!

Azərbaycan Respublikasının müstəqilliyindən 10 il keçməsinə baxmayaraq, Azərbaycanda sosial və iqtisadi keçid mərhələsi və siyasi institutların qurulması davam edir. Azərbaycanda siyasi sistemin demokratikləşməsi sahəsində irəliyə addımlar atılmasına ehtiyac duyulur. Qanunların rolu hələ də zəifdir. Buna baxmayaraq, biz Azərbaycanda geniş demokratikləşmə meylinin olduğunu da diqqətlə nəzərdən keçirməliyik. Azərbaycanda Açıq Cəmiyyət qurumlarının mövcudluğu aşkardır. Biz Azərbaycanda insan hüquqları pozuntularına qarşı mübarizə aparılmasını öz mətbuatımızdan bilirik, bu da demokratikləşmə prosesinin mühüm əlamətidir.

Sovet sistemində təhsil ciddi mərkəzləşmiş nəzarət altında idi. Hər şey "yuxarıdan" idarə olunur, planlaşdırılır və təyin olunurdu. Eyni proqramlar və qaydalar eyni tələblər və öhdəliklər yaratdı, bunun nəticəsində rəqabət zəiflədi və standartlar aşağı düşdü.

Son onillikdə Azərbaycanın təhsil sistemində müxtəlif islahatlar aparılmasına çalışılmışdır ki, bunun da əsas məqsədi Azərbaycanın təhsil sistemini Qərb standartlarına yaxınlaşdırmaq olmuşdur.

Uğura doğru aparan iki mümkün yol görünür. Birincisi, bütün təhsil sistemində, dövlət universitet və institutlarında köklü yenidənqurmalar aparmağa çalışmaq (Bütöv təhsil sistemində addım-addım islahatlar aparılması).

İkinci yol isə tam sıfırdan başlanmalıdır; Bu, beynəlxalq perspektivlərin və milli dəyərlərin sintezi kimi yeni modelli kiçik qurumların, o cümlədən universitetlərin qurulmasıdır. Əslində islahatlar hər iki yolun eyni zamanda, birgə tətbiqinə əsaslanmalıdır.

Keçmiş Sovet Azərbaycanından miras qalmış təhsil sistemində, o cümlədən də ali təhsil sahəsində müəyyən dəyişikliklər baş vermişdir. Hal-hazırda 28 dövlət universiteti (əsasən sovet modelinə bənzər quruluşa malik olan) və 13 özəl universitet fəaliyyətdədir. Dövlət universitetləri öz xərclərinin yarısını dövlət büdcəsindən, digər yarısını isə təhsil haqqından alır. Özəl universitetlər isə dövlətdən heç bir yardım almır.

Xəzər Universitəsi 1991-ci ildə yaradılmışdır. Xəzər Universitəsi elmi tədqiqatlara üstünlük

verən, həm bakalavr, həm magistr, həm də doktorluq dərəcələri verilməsi ilə nəticələnən güclü akademik proqramlara malikdir.

İngilis dili burada təhsilin əsas dilidir, bunun nəticəsində tələbələrimiz Qərbi Avropa ölkələri və ABŞ-da olduğu kimi mübadilə proqramlarında iştirak edir, xaricdən dəvət olunmuş professorlardan faydalana bilirlər, onu da xüsusilə qeyd etmək lazımdır ki, Qərb ölkələrində tətbiq olunan dərsliklərdən istifadə edirlər.

"Xəzər" çevik kredit sistemi modelindən istifadə edir. Xəzər Universiteti geniş beynəlxalq əlaqələr şəbəkəsini özünün inkişafında aparıcı vasitə hesab edir, fondlar və korporasiyalardan maliyyə yardımı cəlb edir. Xüsusi halda, Xəzər Universitəsi Avropa Komissiyasının TEMPUS proqramları çərçivəsində keyfiyyətin təminatı mərkəzinin və həmçinin, Xəzər Universitəsində tələbə xidmət mərkəzlərinin yaradılmasını uğurla həyata keçirir. Bu proqramlarda bizim tərəfdaşlarımız İngiltərə, Hollandiya və İtaliya universitetləridir.

Azərbaycanın hal-hazırkı təhsil sisteminə mənfi təsir göstərən bəzi cəhətlər var ki, mən onların adını çəkmək istəyirəm:

- Keçid dövründə olan və rüşvətxorluq, korrupsiya ilə dolu olan iqtisadiyyat;
- Ədalətsiz, uyğun olmayan vergi sistemi (ən azı təhsil sistemi ilə bağlı);
- Zəif kitabxanalar, bilik və onun inkişafı ilə bağlı olan vasitələrə çıxışın zəifliyi;
- Təhsildə müstəqil və dəqiq işləyən akkreditasiya sisteminin olmaması;
- Özəl universitetlərə daxil olan tələbələrin qəbul prosesinin bütünlüklə gözəgörünməz dövlət rəsmilərindən asılılığı.

Dövlətlə universitetlərin əlaqəsinə aid olan bir misal çəkmək istəyirəm. Hüquq, beynəlxalq hüquq və beynəlxalq münasibətlər sahəsində akademik proqramlar universitet yaranandan bizim diqqət mərkəzimizdə olmuşdur. Zənnimcə, güclü beynəlxalq əməkdaşlıq əlaqələrimiz də daxil olmaqla bu üç sahədə biz xeyli uğurlar əldə etmişik. Bizim UCLA (University of California in Los-Angeles), George Mason University, Purdue University, Columbia, Princeton, Harvard və başqa universitetlərlə bu sahələri inkişaf etdirən proqramlarımız və layihələrimiz olmuşdur.

Bu sahələrin inkişafına çoxlu vəsait qoyulmuş, tədqiqatlar aparılmış və çox dəyərli insanlar bu proqramların inkişaf etməsi üçün əmək sərf etmişlər.

Amerika Dövlət Departamenti, Açıq Cəmiyyət İnstitutu (Soros fondu), Avrasiya fondu, IREX, CEP(Civic Education Project), Unocal, Avropa Komissiyası, NATO, Dünya Bankı və başqa təşkilatların dəstəyi ilə biz ilk dəfə olaraq Qafqazda Hüquq Klinikası, Peşə və Məşğulluq Mərkəzi, Təhsildə Keyfiyyətli Təminat Mərkəzini yaratdıq. Biz insan hüquqları, humanitar hüquq, vəkillik və başqa fənlər üzrə Azərbaycanda ilk dəfə yeni proqramlar, kurslar yaradıb həyata keçirdik. Müəllim və tələbə mübadilələri edirik və birlikdə yaxşı kitabxana külliyatı yaratdıq. Fikrimcə, bütün bunlar Xəzər Universitəsinin bu sahələrdə aparıcı yer tutduğundan söhbət açır. Lakin bu yaxınlarda bizə məlum oldu ki, dövlət rəsmiləri Xəzər Universitəsinə bu tədris ili üçün bu sahələr üzrə yeni tələbələr qəbul etməyimizə icazə vermir (?!) Tələbələrin və əsas ixtisasların sayının azaldılması səbəbləri barədə heç bir məlumat verilmir. Belə bir vəziyyətdə ən acınacaqlı fakt odur ki, müxtəlif özəl universitələr ədalətli deyil, tərəfkeşliklə qiymətləndirilir. Belə ziddiyyətlər təhsil siyasəti üçün qarışıqlıq və naümidlik yaradır.

Məlum olduğu kimi, proqramların say və məzmun etibarilə zənginliyi, eləcə də tələbə qəbulunun artırılması oxumaq istəyənlərin geniş və azad, sərbəst seçimini təmin edir. Dünya Bankının mənbələrinə görə iqtisadiyyatı keçid dövründə olan ölkələrdə müqayisəli tələbə olma imkanları göstəriciləri baxımından Azərbaycan keçmiş sovet məkanında Tacikistan və Özbəkistan istisna olmaqla digər respublikalardan geri qalır. Tələbə olmaq üçün bərabər hüquqa malik olmaq və tələbələrinin sayının artırılmasına yönələn strategiya ali təhsil siyasətinin əsas üstün istiqamətlərindən biridir. Özəl ali təhsil müəssisələrinin inkişafının təmin olunması bu işə böyük kömək edə bilər.

Bir tərəfdə dayanıb tənqid etmək əvəzinə, gəlin dostcasına hərəkət edək və təhsilin inkişafı naminə səylərimizi artıraq.

Təkmilləşməyə ehtiyac çoxdur, bununla belə Azərbaycanda demokratikləşmə meylləri yüksələn xətt üzrə gedir. Avropa Şurası bu sahədə əməkdaşlıq mövqeyindən çıxış edərək bu prosesin uğurlu gedişatına təkan verməlidir. Bu bizim mövqeyimizdir.

*Çıxışı ingilis dilindən*
*Xəzər Universitəsinin*
*hüquq və sosial elmlər*
*fakültəsinin tələbəsi*
*Rəşad İBADOV çevirib*
*Foto Fərid QƏDİROVUNDUR*